Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 7 (1135) 14 yanvar - 15 yanvar 2016-cı il

# CƏLİLABAD - 2015

(əvvəli ötən saylarımızda)

> "Regionların inkişafı Proqramının icrası ilə bağlı əvvəlki dövrdə başladığımız işlər bu gün artıq reallaşır və özünü büruzə verir. Regionlarda bütövlükdə işlər yaxşı gedir. Mən bu bölgədə dəfələrlə olmuşam.
> Əminəm ki, bütün bu zona daha da inkişaf edəcək. Bunu etmək üçün indi bütün infrastruktur layihələri icra edilir, yollar çəkilir".
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

**Məlum olduğu kimi hər bir bölgənin, hər bir yaşayış massivinin abadlığı ilk öncə onun yolundan məlum olur. Yəni abad yol təbii ki, abad şəhərdən, abad kənddən xəbər verir. Bu mənada məsələyə yanaşsaq, onda görərik ki, Azərbaycan prezidenti cənab İlham Əliyevin sərəncamı ilə digər regionlar kimi Cəlilabadda da yol-nəqliyyat infrastrukturunun müasir tələblərə cavab verə biləcək bir səviyyədə qurulması üçün Prezidentin Ehtiyat Fondundan xeyli vəsait ayrılmış və bu da Cəlilabad rayonunun yol infrastrukturunu yenidən qurmaq, bərpa etmək imkanlarını xeyli artırmışdı. Təbii ki, dövlət başçısının tapşırığı, diqqət və tələbi burada əsas arqument olmaqla yanaşı, həm də məsələyə münasibətin tam məsuliyyət üzərində qurulması deməkdir.**

Bəli, bu gün məhz ölkə rəhbərinin diqqət və qayğısı ilə gerçəkləşdirilən layihələr içərisində yol tikintisinin sürət və keyfiyyəti hər kəsin müşahidə etdiyi gerçəklikdir. Cəlilabada yolu düşən istənilən şəxs Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun keyfiyyətindən yəqin ki, xəbərdardı. Böyük əhəmiyyət kəsb edən və rayonun beş yaşayış məntəqəsini birləşdirən bu magistral təkcə rayon üçün yox, həm də bu bölgəyə səfər edən hər kəs üçün sözün gerçək mənasında yüksək keyfiyyətli yol tikintisinin nümunəsi kimi maraqlıdır. Və insanlar təbii ki, ölkə prezidentinin sərəncamı ilə uzunluğu 21 kilometr, eni 8 metr olan bu yolun ikiqat asfaltına görə çox məmundular. Konkret olaraq həmin məntəqələrdə yaşayan 23 000 əhali bu yoldan artıq çox rahatlıqla istifadə edir.

Yeri gəlmişkən onu da xatırladaq ki, tikinti sahəsində Cəlilabadda görülən işlər arasında Göytəpə şəhərində tikilən və 30000 kv.metr ərazini əhatə edən və Ulu Öndərin adını daşıyan park-bulvar əsl cənnət məkanı xatırladır. Burada insanların istirahəti üçün demək olar ki, hər cür şərait yaradılıb. Ona görə də bu park-bulvarda həmişə bir qələbəlik olur.

Cəlilabad rayonunda daxili imkanlar hesabına 23000 kilometr uzunluğu olan və Göytəpə-Alar-Qarazəncir-Muğanlı kəndlərindən keçən yolun hər iki tərəfini dekorativ hasarlarla yenidən qurulması, vətəndaşlara məxsus 500-dən artıq darvazaların eyni formada qurulması, yeni səkilərin, bordürlərin çəkilməsi, işıq dirəklərinin yenilənməsi görülən işlərin təkcə statistikası deyil, o həm də yaradılan bir gözəllikdir. Cəlilabadda abadlığa, yenidənqurmaya olan maraq və bütövlükdə bu istiqamətdə görülən işlərin planlı aparılması nəticəsində bir sıra sosial obyektlərin də tikilib başa çatdırılmasına şərait yaratmışdı. Məsələn, ötən il ərzində rayonun əsas küçələrinin yenidənqurulması, Göytəpə şəhərində Dairə Seçki Komissiyası üçün inzibati binanın və onun qarşısında parkın tikilməsi, həmçinin sökülmüş ikimərtəbəli mənzil əvəzinə yeni yaşayış binasının tikilib istifadəyə verilməsi söylədiklərimizə konkret nümunə ola bilər. Həmçinin Lənkəran hərbi prokurorluğunun, rayon elektrik şəbəkəsinin və kənd təsərrüfatı idarəsinin inzibati binalarının tikintisinin yekunlaşmaq üzrə olması da burada aparılan quruculuq, abadlıq işlərindən xəbər verir. O ki, qaldı prespektivdə olan vəzifələrə, onlardan biri də Göytəpə şəhərində mədəniyyət mərkəzinin və idman kompleksinin tikintisinə başlanılmasıdı. Yəqin ki, yeni ildə cəlilabadlılar bu arzularının da çin olduğuna şahid olacaqlar.

Məlum olduğu kimi, Cəlilabad həm də kənd təsərrüfatı rayonudu. Ona görə də bu rayonda aqrar bölməyə xüsusi diqqət yetirilir. Məhz bu diqqətin nəticəsidir ki, ötən il rayonda bitkiçilik, heyvandarlıq sahələrində xeyli uğurlar qazanılmışdır. Doğrudur. Ötən ilin hava şəraiti əlverişsiz olsa da, rayon taxılçıları 66000 hektardan artıq sahədə dənli və paxlalı bitkilərin biçinini vaxtında başa çatdıra bilmiş və hər hektardan da 28,6 sentner olmaqla təqribən 189 min ton məhsul toplaya bilmişdilər. Burada onu da vurğulamaq yerinə düşər ki, əkin altında olan sahələrin 80,2 faizi buğda, 13 faizi arpa, 1,7 faizi vələmir, 4,4 faizi noxud və digər məhsulların payına düşür. Ümumiyyətlə bu rayonda istehsal olunmuş ümumi məhsulun təqribən 83 faizi buğdadan ibarətdir. Bu isə Cəlilabadda hər kəsin süfrəsində çörək deməkdir.



Bu il cari ilin əkin planında da müəyyən dəyişikliklər var. Belə ki, 44740 hektar sahədə şum aparılmışdır ki, bu da ötən ildəkindən 1990 hektar çoxdur. Həmin sahə üçün nəzərdə tutulan toxum ehtiyatı da 12000 ton əvəzinə 15000 ton tədarük olunmuşdur. Deməli, cəlilabadlılar nəzərdə tutduqları sahədə əkin-səpin işlərini artıq uğurla başa çatdırıb və bu ilin məhsulu üçün gərək olan becərmə işlərini uğurla davam etdirirlər.

Bu il Cəlilabad rayonunda kartof əkini üçün də xeyli işlər görülüb. Hələ ötən il Cəlilabadda 77415 ton kartof istehsal olunmuşdu ki, bu da 2014-cü illə müqayisədə təqribən 10 ton çox idi. Yeni cəlilabadlılar hər hektardan 198,5 sentner məhsul əldə etmişdilər. Onu da xatırladaq ki, rayonda əkilən kartofun toxumunu sahibkarlar Rusiya Federasiyasından almışdılar. Bu da təbii ki, baha başa gəldiyindən artıq rayonda kartof toxumçuluğu təsərrüfatı yaradılması ciddi bir problem kimi qarşıda dayanmışdı. Yəqin ki, bu məsələ də öz həllini tapacaq və cəlilabadlıların kartof toxumuna olan ehtiyatı elə yerindəcə həll olunacaq.

**Bəli, bu gün Cəlilabadda heyvandarlıq və bostan-tərəvəz məhsullarının istehsalı sahəsində də müəyyən uğurlara imza atılıb. Təbii ki, bütün bunların kökündə də təsərrüfata sahibkar kimi yanaşmaq, gərəkli tədbirləri görmək və müasir üsullardan yararlanmaq dayanır. Buraya dövlət qayğısını da əlavə edəndə nəticə də sevindirici olur.**

*Ceyhun RÜSTƏMOV*



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ